# Sənətinin fədaisi

## (Portret cizgiləri)

**Onunla bizim tanışlığımızın, dostluğumuzun tarixi elə də çox deyil. Təxminən 8 ildir. Bizi dəyərli ziyalı, şair təbiətli, AHİİT İctimai Birliyinin maliyyə idarəsinin rəisi Tahir Ələkbərli tanış edib. Həmin vaxtı Ağalar İdrisoğlu şöbə müdiri olduğu "Azad Azərbaycan" qəzetində mənim və boks üzrə dünya səviyyəli yetişdirdiyim tələbələrimlə bağlı çox maraqlı bir yazı yazmışdı. Həmin yazı həm də saytlarda çap olunmuşdu. O yazı oxucular tərəfindən də çox maraqla qarşılanmışdı. Orada həm də bizim problemlər özünün əksini lazım olan səviyyədə tapmışdı.**

Özü əslən Masallıdan olan Ağalar İdrisoğlu doğma yurda gələndə biz onu dəvət etdik və o, Liman şəhərinə gəldi. Cənub Regional Boks Mərkəzinin bizim əlimizdən zor gücü ilə necə alınması sənədləri ilə tanış oldu. Liman şəhərinin dözülməz problemlərini öz gözləri ilə gördü və sonra qəzetlərdə, saytlarda "Liman harayı" adlı iki yazı çap etdirdi. Beləliklə, bu 8 ildə təkcə Liman şəhəri və onun sakinlərilə bağlı Ağalar İdrisoğlunun 20-dən çox maraqlı yazısı qəzetlərdə və saytlarda çap olunub. Və eləcə də Liman şəhəri və Lənkəran rayonunun yazarlarının çoxlu yazılarını mətbuat səhifələrində çap etdirib. Bundan sonra limanlıların ona hörməti daha çox artdı. Həmin vaxtdan sonra bizim onunla dostluğumuz başladı. Məlum oldu ki, mən də o da balıq bürcündənik. O, bu 8 ildə bizim "Spartak" İdman Təşkilatı, Limanda və Lənkəranda yaşayan çoxlu idmançılar və ziyalılar haqqında da lazım olan yerlərdə öz sözünü dedi və onları müdafiə elədi. Bizi respublika və dünya oxucularına daha yaxlndan tanıdıb. Yuxarıda dediyim kimi bu 8 ildə bölgənin yazarlarının hekayələrinin, şeirlərinin, oçerklərinin, məqalələrinin respublika mətbuatında çap olunması üçün təmannasız böyük işlər görür. Biz də onun haqqında yazmaq istəyirdik. Amma hər dəfə bu haqda danışanda Ağalar İdrisoğlu təvazökarlıq edərək, buna razılıq vermək istəmirdi. Axır ki, onun "saqqızını oğurladıq" və bu müsahibəni verməyə razılaşdı. İlk öncə onu çoxminli oxucularımızla daha yaxından tanış etmək istəyirik.

**Qısa arayış: Tanınmış yazıçı, dramaturq, rejissor, aktyor, publisist, jurnalist, böyük teatr təşkilatçısı, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlunun (Mehdiyev) 2023-cü ilin mart ayının 16-da yetmiş üç yaşı tamam oldu. Yetmiş üç illik çox mənalı ömrünün təkcə əlli ilindən çoxunu ədəbiyyata, incəsənətə, jurnalistikaya xidmət edən Ağalar İdrisoğlu maraqlı və keşməkeşli bir ömür yaşayıb.**

O, 1950-ci ildə Masallı rayonunun Digah kəndində anadan olub. Səkkiz illik təhsilini Digah kəndində, orta təhsilini isə Masallı şəhərindəki Nəriman Nərimanov adına 2 nömrəli orta məktəbdə alıb. 1968- 70- ci illərdə Rusiyanın Kalinin şəhərində raket hərbi hissəsində ordu sıralarında qulluq edib. 1975 - ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dram və kino aktyorluğu fakültəsini bitirdikdən sonra Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayıb. Sonra Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına aktyor vəzifəsinə dəvət olunub. O, aktyor kimi yaradıcılığa başladığı dövrdən bu günə kimi 40-dan artıq ayrı-ayrı xarakterik rollarda uğurla çıxış edib. Oynadığı rolların çoxu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Teatr Xadimləri İttifaqının və başqa təşkilatların diplomlarına, pul mükafatlarına layiq görülüb.



1977-ci ilin əvvəlində Sumqayıt şəhərində, respublikada ilk dəfə olaraq "Ümid" adlı Teatr-Studiya yaradıb. Bu Teatr-Studiyanın ilk tamaşası olan Cəlil Məmmədquluzadənin "Kamança" faciəsi elə həmin ilin mart ayının 16-da tamaşaçılara göstərilib Respublika Texniki-Peşə Məktəbləri təşkilatının



birinci dərəcəli diplomuna layiq görülüb. Qısa bir vaxtın içərisində bu "Ümid" Teatr- Studiyası maraqlı tamaşalarına görə Azərbaycanda tanınıb. Uğurlu çıxışlarına və respublika festivallarında həmişə birinci yer tutduğuna, rəngarəng repertuarına görə 1979-cu ildə bu kollektiv Xalq Teatrı adını alıb. Artıq həmin ildən Sumqayıt Gənclərinin Tənqid-Təbliğ Xalq Teatrı adlanan bu kollektivin 1980-ci ildə Mosk-



vada SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində oynadığı Feyruz Məmmədovun "Bir bayraq altında" teatrlaşdırılmış tamaşası Qızıl medala layiq görülüb. Rejissor kimi Ağalar İdrisoğlu da Qızıl medal alıb. O, Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında aktyor işləməklə bərabər, 1986-ci ilə kimi Sumqayıt Gənclərinin Tənqid-Təbliğ Xalq Teatrına da rəhbərlik edib. 300-dən artıq sumqayıtlı yeniyetmə və teatr həvəskarı onun rəhbərlik etdiyi Sumqayıt Gənclərinin Tənqid-Təbliğ Xalq Teatrında və onun nəzdində fəaliyyət göstərən "Ümid" Teatr-Studiyasında Ağalar müəllimdən və tanınmış yazıçılardan, jurnalistlərdən, təcrübəli aktyorlardan, teatrşünaslardan, baleymeystrlərdən, rəssamlardan, musiqiçilərdən teatr sənətinin, səhnə danışığının, teatr plastikasının, musiqinin, ədəbiyyatın, publisistikanın, jurnalistikanın sirrlərini öyrəniblər. Bu gün həmin yeniyetmə və gənclərin bir hissəsi peşəkar teatrlarda aktyor, aktrisa, rejissor, rəssam, teatrşünas işləyirlər. On nəfərdən çoxu isə fəxri adlar alıblar. Onun yetirmələrindən bəziləri respublika mətbuatında və ayrı-.ayrı dövlət təşkilatlarında çalışırlar. Hətta müəllim, həkim, dövlət qulluğu işçisi, mühəndis işləyənlər də var. Ağalar İdrisoğlu, Sumqayıt Gənclərinin Tənqid-Təbliğ Xalq Teatrında 30-dan çox tamaşaya quruluş verib. Eləcə də həmin dövrdə Sumqayıtda hazırlanan Əmək - İncəsənət teatrlaşdırılmış bayramlarının, şəhər tədbirlərinin də ssenari müəllifi və quruluşçu rejissoru məhz Ağalar İdrisoğlu olub.

**O, 1981 və 1986-cı illərdə Moskva şəhərində Andrey Vasilyeviç Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun (indiki Beynəlxalq Teatr Akademiyası) Musiqili Teatrlar Rejissorluğu fakültəsində (qiyabi) təhsil alıb. Beş il müddətində o vaxtlar Sovetlər Birliyində və Avropada incəsənətin, ədəbiyyatın beşiyi, mədəniyyətin mərkəzi sayılan Moskva şəhərində böyük sənət təcrübəsi toplayıb. Rejissor sənətinin sirrlərini Mariya Osipovna Knebeldən, Aleksandr Aleksandroviç Barmakdan, İakim Georgiyeviç Şaroyevdən daha dərindən öyrənib Ağalar İdrisoğlu.**

*(Ardı gələn sayımızda)*

**Əlizadə ƏSƏDOV,**
**yazıçı, publisist-jurnalist, "Qızıl qələm" media mükafatı laureatı, Beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi**

Azad Azərbaycan.- 2023- cü il.- 10 avqust.- S. 5.